

# Milli iradə və zəfərdən sonrakı reallıqlar

**8 Noyabr - Zəfər Günü münasibətilə Şuşada təşkil olunmuş tədbirdə iştirak edən Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin hərbçilər qarşısındakı çıxışı tarixi məzmunu ilə yadda qaldı.**

Dövlət rəhbərinin nitqində toxunduğu məqamlar xalqımızı bu Zəfərə yetirmiş inkişaf yolunun bir daha nəzərdən keçirilməsi, şanlı qələbəmizdən sonra yaranmış yeni reallıqların qiymətləndirilməsi, ölkəmizin məsələlərə strateji baxışının ifadə olunması, eləcə də Ermənistandakı revanşist qüvvələrə və onlara havadarlıq edərək Azərbaycanla təhdid dilində danışmaq istəyənlərə qətiyyətli cavab baxımından çox böyük maraq doğurdu.

## Şərəflə yerinə yetirilən tarixi missiya

Ali Baş Komandan müqəddəs Şuşanı sıldırım qayalardan dırmaşaraq yüngül silahlarla küçə döyüşlərində, düşmənlə əlbəyaxa savaşda azad edib, bu şəhərdə bayrağımızı ucaltmış hərbçilərimizin, ümumilikdə 44 günlük müharibə zamanı yalnız irəli getməklə torpaqlarımızı düşməndən azad etmiş əsgər və zabitlərimizin qəhrəmanlıqlarını yüksək dəyərləndirdi. "Hərbçilərimiz ölümə gedirdilər, "öldü var, döndü yoxdur" şüarı ilə döyüşlərə gedirdilər, bir nəfər də olsun fərari olmamışdır. Bu, xalqımızın qəhrəmanlığıdır və onu göstərir ki, elə gözəl gənc nəsil yetişdi ki, onların bir çoxları Qarabağı, Zəngəzuru heç vaxt görməmişdilər, televiziyalarda, fotoşəkillərdə, valideynlərin, böyüklərin söhbətlərində bu müqəddəs torpağa yaxınlaşırdılar. Ancaq onlar gəldilər və xalqımızın tarixi missiyasını şərəflə yerinə yetirdilər" - dedi cənab İlham Əliyev.

Azərbaycanın bu şanlı qələbəsi işğal dövründə bizim öz ərazi bütövlüyümüzü guya müharibə yolu ilə bərpa edə bilməyəcəyimiz barədə təsəvvür yaratmağa və bununla ölkəmizi hərbdən çəkindirməyə çalışan Ermənistana və onun havadarlarına da tutarlı cavab olub. Dövlətimiz uzun illər ərzində sülh prinsiplərinə hər nə qədər sadiq qalsa belə, müharibə yolunu da heç zaman istisna etməyib və artıq sülh danışıqlarının heç bir mənasının qalmadığı tam təsdiqlənəndə yumruq kimi birləşərək tarixi missiyanı ordumuzun gücü ilə yerinə yetirib.

## Qələbə üstünə qələbə

Azərbaycanın uzun illərin problemini cəmi 44 günün içində yoluna qoymağa müvəffəq olmasına şərait yaradan başlıca amil bu müharibəyə bir neçə il davam edən hərtərəfli hazırlıqdır. Azərbaycan dövləti bu müddət ərzində öz ordusunu gücləndirərək bir çox meyarlar, o cümlədən lazımi silah və texnika ilə təchizat baxımından dünyanın ən öncül orduları sırasına yüksəldə bildi. Bundan ötrü isə ölkəmizdə ordu quruculuğuna şərait yaradan güclü iqtisadiyyat quruldu.

Bu gün heç kimin yardımına ehtiyac olmadan, yalnız öz imkanları hesabına yaşayan, həyatını, gələcəyini quran Azərbaycanın öz büdcə vəsaitləri ilə Qarabağda, Şərqi Zəngəzurda həyata keçirdiyi bərpa-quruculuq tədbirləri ölkə iqtisadiyyatının nə qədər möhkəm, dayanıqlı olduğunu göstərir. Ali Baş Komandan da öz çıxışında bildirdi ki, əgər biz kimdənsə iqtisadi cəhətdən asılı olsaydıq, müharibəni uğurla başa vura bilməzdik. Müharibədən yenicə çıxmış ölkəmiz dünyada özünü göstərən iqtisadi böhrana rəğmən işğaldan azad olan yurdlarımızda bu dəfə də quruculuq tarix yaradır, o torpaqları yenidən inkişaf axarına qovuşdurur. Bu, qələbə üstünə qələbədir.

Azərbaycan ötən dövrdə Ermənistanın və onun havadarlarının illərdən bəri ölkəmiz ətrafında yaratmağa çalışdığı informasiya blokadasını da yardı. Aparılan məqsədyönlü informasiya müharibəsi ilə haqlı mövqeyini, beynəlxalq hüququn məhz bizim tərəfimizdə olduğunu bütün dünyaya göstərdi. BMT, ATƏT, Avropa İttifaqı, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası kimi aparıcı beynəlxalq qurumların Azərbaycanın mövqeyini dəstəkləyən, haqq-ədaləti ifadə edən qərar və qətnamələr qəbul etməsinə nail oldu. Beləliklə, ölkəmizin ərazi bütövlüyünün bərpası üçün beynəlxalq hüquqi zəmin yaradıldı. Eyni zamanda bir çox ölkələrlə, o cümlədən Avropa İttifaqına daxil olan doqquz ölkə ilə sıx əməkdaşlıq əlaqələri yaradıldı, onlar arasında müxtəlif sahələrdə strateji tərəfdaşlığa şərait yaradan sənədlər imzalandı. Azərbaycan uğurlu diplomatiyası ilə bütün dünyada dostlarımızın, yeri gəldikcə haqlı mövqeyimizi müdafiə edənlərin çevrəsini genişləndirdi. Bu illər ərzində dövlətimiz çox güclü beynəlxalq dəstək qazandı. Azərbaycanın Qoşulmama Hərəkatına sədr seçilməsi, müsəlman ölkələri arasındakı nüfuzu, Ermənistanın məscidlərimizi dağıtmaqla, müqəddəs dini məkanlarımızda donuz saxlamaqla təkcə bizə yox, bütün müsəlman aləminə qarşı təcavüzkar siyasət apardığını göstərməsi buna nümunədir. Bu gün bütövlükdə müsəlman aləmində Ermənistana aydın və obyektiv münasibət formalaşıb. Azərbaycan bu təsəvvürü formalaşdırmağı bacarıb.

## "Biz böyük bir ailəyik"

Son onilliklərdə cəmiyyətimizdə yüksələn vətənpərvərlik ruhu işığında böyük və güclü nəslin yetişməsi də bizim ən böyük nailiyyətlərimizdir. Tarixi Zəfərimizdə bu amilin çox böyük rolu oldu. Ərazi bütövlüyümüz uğrunda apardığımız haqq savaşı, ölkəmizdə yaşayan bütün xalqların təmsilçilərinin bu savaşda qətiyyətlə iştirakı göstərdi ki, milli birlik, vahid hüquqi kimlik anlayışı Azərbaycanda sadəcə şüar deyil, reallıqdır. Respublikamızda yaşayan hər bir xalqın təmsilçisi bu torpaqları özünə vətən bilir və digər həmvətənlərimizlə birgə Azərbaycan uğrunda ölümə belə getməyə hər an hazırdır. Azərbaycan Prezidentinin apardığı siyasət etnik mənsubiyyətindən, dilindən, dinindən asılı olmayaraq bütün vətəndaşlarımızı dövlətçilik dəyərlərimiz ətrafında daha da sıx birləşdirir, yumruğa çevirir.

Azərbaycan Prezidenti bu məqama Şuşadakı çıxışında da xüsusi toxundu: "Mən dəfələrlə deyirdim, bu gün də deyirəm, biz böyük ailəyik. Azərbaycanda yaşayan bütün xalqlar bir böyük ailənin üzvləridir. Yaxşı günlərdə, ağır günlərdə bir yerdəyik və bu birlik dünya miqyasında nadir dəyərdir. Baxın, biz başqa ölkələrin timsalında milli, dini, etnik zəmində narazılıq, toqquşma, inamsızlıq görürük. Azərbaycanda nə görürük - birlik, qardaşlıq, dostluq! Azərbaycanda yaşayan bütün xalqlar Qarabağ uğrunda ölümə gedirdilər. Bu, bizim böyük dəyərimizdir. Biz bunu, bu dəyəri daim qoruyub saxlamalıyıq, gücləndirməliyik. İkinci Qarabağ müharibəsi ölkəmizdə milli həmrəyliyi, milli birliyi daha da gücləndirdi, ölkəmizi gücləndirdi. Biz bu ağır yükü çiyinimizdən atdıq, bu damğanı boynumuzdan atdıq. Biz indi başımızı dik tutub istənilən tədbirdə, istənilən formatda sözümüzü deyirik. Biz üzümüz ağ, alnımız açıq, müzəffər xalq kimi yaşayırıq".

## Azərbaycan Ordusu iki il əvvəlkindən də güclüdür

Bu gün Azərbaycan regionda formalaşdırdığı yeni reallıqlarla, gerçəkləşdirilməsinə böyük əmək sərf etdiyi qlobal layihələrlə bölgədə inkişaf üçün böyük fürsətlər yaradır. Hazırda Avropa qitəsinin enerji təhlükəsizliyinin əsas təminatçısı rolunda çıxış edən ölkəmizin təşəbbüsü ilə icra edilən layihələr həm Azərbaycana, həm də tərəfdaşlarımıza böyük faydalar gətirir. Bütün bunlar dövlətimizin beynəlxalq nüfuzunu daha da yüksəldir, eyni zamanda ölkəmizə böyük maliyyə imkanları yaradır. Bu imkanlardan faydalanaraq Azərbaycan dövləti ordu quruculuğuna, sərhədlərimizin müdafiəsinə xüsusi diqqət ayırır. Ermənistanda ara-sıra baş qaldırmaq istəyən, müharibənin nəticələri ilə barışmaq fikrində olmayan revanşist əhvallı qüvvələrin mümkün addımlarına qarşı lazımi tədbirlər görülür, eləcə də 10 noyabr 2020-ci il tarixli Bəyanatla üzərinə götürdüyü öhdəliklərə əməl etməyən Ermənistanın vaxtaşırı törətdiyi hərbi təxribatlara ordumuz qəti addımları ilə cavab verir. Həm struktur islahatları, həm yeni birləşmələrin yaradılması və mövcud birləşmələrin sayının artırılması, həm də silah-sursatla, yeni texnika ilə təchizat baxımından Azərbaycan Ordusu son iki ildə daha da güclənib. Müzəffər Ali Baş Komandan bu reallığı Şuşadan bir daha hər kəsə bəyan etdi: "İndiki Azərbaycan Ordusu iki il bundan əvvəlki Azərbaycan Ordusundan daha güclüdür və bunu hər kəs bilməlidir, Ermənistan və hər kəs!"

Prezident İlham Əliyev xüsusi vurğuladı ki, İkinci Qarabağ müharibəsinin dərsləri Ermənistan tərəfindən unudulmamalıdır və onlar bilməlidirlər ki, odla oynamaq onlara baha başa gələcək. Əgər orada kimsə - istər iqtidar, istər müxalifət, istərsə də xaricdən göndərilmiş, öyrədilmiş hansısa ünsür yenidən bizə qarşı hansısa bəd fikirdə olmaq niyyətindədirsə, o, bizim yumruğumuzu bir daha görəcək və son iki ilin tarixi bunu göstərdi: "Hətta bu il "Fərrux" əməliyyatı, "Qisas" əməliyyatı, 13-14 sentyabr Ermənistan-Azərbaycan sərhədindəki hadisələr - bütün bunlar Ermənistan üçün dərs olmalıdır. Biz bu dərsi öyrədirik və ümid edirik ki, nəhayət, onlar bunu anlayacaqlar, boyunlarını büküb öz daxili işləri ilə məşğul olacaqlar, bizim torpağımıza göz dikməyəcəklər, Qarabağa göz dikməyəcəklər. Qarabağ bizim torpağımızdır. Rus sülhməramlılar orada müvəqqəti yerləşiblər, 2020-ci ilin 10 noyabr Bəyanatında onların müddəti göstərilir və əgər kiməsə bel bağlayırlarsa, yenə də faciə ilə üzləşəcəklər".

## "Öldü var, döndü yoxdur"

Azərbaycanın ədalətli ölkə kimi bütün beynəlxalq razılaşmalara həmişə hörmətlə yanaşdığını, üzərinə götürdüyü öhdəlikləri yerinə yetirdiyini xatırladan Ali Baş Komandan bildirdi ki, Ermənistan yenə də vaxt uzatmağa başlayıb və öhdəliklərini hələ tam yerinə yetirməyib. "Ermənilər silahlı qüvvələri Qarabağda nə gəzir? Bizim səbrimiz tükənməz deyil və bir daha xəbərdarlıq etmək istəyirəm, əgər bu öhdəlik yerinə yetirilməsə, Azərbaycan lazımi addımlar atacaq. …Zəngəzur dəhlizi Ermənistanın öhdəliyidir, öz üzərinə öhdəlik götürüb. Biz iki il ərzində Laçın yolu ilə Ermənistandan Qarabağa və əks istiqamətə gedən maşınlara toxunmuruq. Biz öhdəlik götürmüşük, yerinə yetiririk, sərbəst hərəkət. Ermənistan da öhdəlik götürüb ki, Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında yol bağlantısı olsun. İki il keçib üstündən, nə texniki-iqtisadi əsaslandırma var, nə hansısa hərəkət var, nə dəmir yolu, nə də avtomobil yolu. Biz nə vaxta qədər gözləməliyik?"

13-14 sentyabr tarixində Ermənistanın hərbi təxribatına qarşı Ordumuzun cavab tədbirindən də danışan Azərbaycan Prezidenti qeyd etdi ki, həmin hadisələrdən sonra hazırda Silahlı Qüvvələrimiz Azərbaycan-Ermənistan sərhədi istiqamətindəki əsas strateji yüksəkliklərdə yerləşib. Həmin strateji yüksəkliklərdən Qarakilsə, Qafan, Gorus, İstisu şəhərlərini görürük. "Biz Bala Göyçə gölünün sahilindəyik. Böyük Göyçə gölü də gözümüzün önündədir. Bütün bunlar reallıqlardır. Bu reallıqları biz yaratmışıq, Vətən müharibəsindən sonra. Nə üçün? İlk növbədə, Ermənistanın hərbi təxribatlarına cavab olaraq, digər tərəfdən, özümüzü gələcək hərbi təxribatlardan sığortalamaq üçün. Çünki dediyim yüksəkliklərdən Ermənistanın əksər postları görünür və əgər orada qüvvələrin konsentrasiyası baş verərsə, biz bunu görüb dərhal tədbir görəcəyik. Eyni zamanda ona görə ki, Ermənistan öz beynəlxalq öhdəliklərini yerinə yetirmir. Ermənistan İkinci Qarabağ müharibəsində məğlub olub, ordusu darmadağın edilib. Məğlub edilmiş ölkə özünü belə apara bilməz. Ona görə bizim bütün addımlarımız əsaslıdır".

Prezident cənab İlham Əliyev onu da vurğuladı ki, bu gün Azərbaycanı indiki çərçivələrdə saxlayan Ermənistanın hansısa havadarının bəyanatı deyil, bizim öz siyasətimizdir. "Biz heç kimdən qorxmuruq, heç kimdən çəkinmirik. Əgər biz kimdənsə qorxsaydıq, heç vaxt İkinci Qarabağ müharibəsinə start verməzdik. Biz hər birimiz ölümə gedirdik, öldü var, döndü yoxdur, ya azadlıq, ya ölüm! İndi də ölümə getməyə hazırıq, öz haqlarımızı tələb edərək".

Şuşadan erməni xalqına da müraciət edən Azərbaycan Prezidenti onlara xaricdə oturan və bu bölgəyə bir oyun meydançası kimi baxmaq istəyən dairələrin qurbanına ikinci dəfə çevrilməməyi tövsiyə etdi. Azərbaycanın bu torpaqlarda əsas söz, əsas güc sahibi olması həqiqətini bir daha diqqətə çatdırdı. "Bizim ordumuz qəhrəmanlıq, peşəkarlıq, fədakarlıq göstərib. Lazım olarsa, bir daha göstərərik, istədiyimizə nail olarıq, bunu hər kəs bilir və bizim sərhədimizdə Ermənistana dəstək olaraq hərbi təlim keçirənlər də bilsinlər. Bizi heç kim qorxuda bilməz. Ermənistan yaxşı qonşuluq siyasəti aparmaq istəyirsə, birincisi, 2020-ci ilin 10 noyabr Bəyanatının bütün müddəalarını yerinə yetirməlidir. Azərbaycanla sülh üzrə aparılan danışıqlarda səmimi olmalıdır. Süni şəkildə vaxt uzatmamalıdır, hansısa möcüzəni gözləməməlidir ki, kimsə gəlib bunların yerinə vuruşacaq. Heç kim gəlib onların yerinə vuruşmayacaq, gəlib vuruşsa da, qarşısında yenə də Azərbaycan Ordusunu görəcək".

Azərbaycan Prezidentinin Şuşada səsləndirdiyi bu fikirlər, dövlət rəhbərimizin ədalətli sülh naminə qətiyyətli çağırışları böyük bir güc qaynağına əsaslanır. Bu güc xalqımızın sarsılmaz iradəsindən, Vətən müharibəsindəki şanlı qələbəmizdən irəli gəlir. Xalqımız bu Zəfərin yaratdığı milli qürurla, milli ruhla bu torpaqlarda böyük bir gələcək quracaq.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*